# “TELEKOM İNVEST” MMC-nin

## KEYFİYYƏT SAHƏSİNDƏ SİYASƏTİ

**“Telekom İnvest” MMC-nin (bundan sonra “Cəmiyyət” adlanacaq) başlıca məqsədi öz işində keyfiyyət prinsipini əsas tutaraq telekommunikasiya və informasiya texnologiyaları sahəsində uğurla fəaliyyət göstərməklə keyfiyyətli iş mühitinin yaradılması, həmçinin Milli informasiya və kommunikasiya infrastrukturunun inkişafı layihələrini dəstəkləməklə cəmiyyətin rifahının yüksəldilməsinə öz töhfəsini vermək və müştərilərin tələblərini yüksək səviyyədə ödəməkdir.**

**Bununla əlaqədar olaraq Cəmiyyətin rəhbərliyi tərəfindən bu istiqamətdə aşağıdakı hədəflər müəyyənləşdirilmişdir:**

* *Hədəf seçdiyi fəaliyyəti və layihələri üzrə nüfuzlu telekommunikasiya və informasiya texnologiyaları şirkətlərindən biri olmaq;*
* *İSO 9001:2015 standartının tələblərinə uyğun olaraq Keyfiyyət Menecment Sisteminin işini qurmaq və inkişaf etdirmək;*
* *Müştərilərin tələb və təkliflərinə uyğun olaraq aparılan telekommunikasiya və informasiya texnologiyaları xidmətlərinin keyfiyyətini daima yüksəltmək;*
* *Müasir dövrün tələblərinə uyğun olaraq əməkdaşların peşəkarlıq səviyyəsini daim yüksəltmək və qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün onların potensial imkanlarından istifadə etmək;*
* *Cəmiyyətin fəaliyyəti ilə bağlı normativ sənədlərin tələblərini yerinə yetirmək;*
* *Müştərilərin məmnunluğunu qazanmaq üçün Cəmiyyətin bütün mövcud risklərini nəzərə almaqla müqavilə öhdəliklərini vaxtında və keyfiyyətlə yerinə yetirmək;*
* *Cəmiyyətin fəaliyyət dairəsinin genişləndirilməsi üçün müxtəlif ölkələrdə keçirilən tenderlərdə iştirak edərək yeni layihələrin əldə olunmasına nail olmaq;*
* *İSO 9001:2015 standartının tələblərinə uyğun olaraq Cəmiyyətin mühitini müəyyənləşdirmək və onun beynəlxalq arenaya inteqrasiyasını təmin etməklə ən qabaqcıl telekommunikasiya şirkəti kimi tanınmaq.*

**Təsdiq edirəm:**
**“ Telekom İnvest” MMC-nin Baş Direkoru**

**________________ Ə.H.Əhmədov**

**“ 03 ” Yanvar 2019-cu il**